## Baxış bucağında...

# Elşən Əzimin gileyi, yoxsa qarğışı

## Şair ahının yanğısında esse-düşüncələr...

Kim bilmir ki, Elşən Əzim ilhamlı şairdir.

Kim bilmirsə, günah özündədir, yəni səndə yox.

Əgər sənə qədər özünü sözdə görüb bəsirəti açılmayıbsa, bundan sonra da çətin olar.

Ruhunda təbii axının qanadlı duyğularını nəinki hiss etmək, hətta görməmək mümkün deyil.

Mən görürəm ki, sən özün min bir fənd-felini, gizlin-aşkar nə sirri varsa, hamısını öyrənib sonra meydana çıxmısan.

Dilinin anası öz südü ilə dilin bütün gizlinlərini sənə verib.

Ananın dili verdiyini dünyanın heç bir kimsəsi verə bilməz.

Amma özün də xəzinəni zaman-zaman Allah umuduna qoymamalısan.

Kəlbəcər, Göyçə, Qarabağ... ədəbi mühitinin yaxşı nəyi varsa, çəkmisən ruhuna.

Tarixin bir qərinəlik bağlanmış qapısındakı paslı qıfılının açarı dilinin altındadır.

Elşən Əzim, işğal dövrü uzandıqca əlim yerdən-göydən üzülürdü.

Tamam yeni ruhda böyüyən nəsillər gəlirdi.

Düşünürdüm ki, neçə əsrin ruhunu yaşadıb bizə çatdıran etnik yaddaş pozulacaq.

Ancaq yaddaşın alt qatı ilə ötürücülük yolu var.

Sənin xalq ruhu ilə dolmuş təbiətini öyrəndikcə ölməzliyin gücünə inandım.

Həmişə düşünmüşəm ki, etnik yaddaşın gücü ilə silahlanmış daşıyıcının ruhu sarsıla bilməz.

İndi birdən-birə sənin "Absurd" şeirini oxudum. Bu da ilkin təəssürat...

Şeirin bədii kamilliyinə söz yox...
Mətnin təlqin məntiqi məni razı salmır..
Bu mətndə özündən küsmək var...
Yazı boyu lirik mən özünə qarğışdadır.
Sima Cəfərova çox həssas oxucudur...
Tədqiqatçı hissi ilə etirazını çatdırıb...
Daha çox sevilməyən adamın gileyidir.
Elşən Əzimin bu gileyə haqqı yox
Niyə hamı dost desin, tostda olsa da,
Sən də dostsuzluq həsrəti çəkəsən.
Tərsinə həyatın o üzündə nə var,
Bilməmiş deyilsən yaxşının tərsi pisdir
Sözünü bilməsəm, özünü bilməsəm,
bircə kəlmə də yazmazdım
Axı niyə pərvanə şama çatmasın...
Axı niyə sənin dünyaya sözün olmasın

Ən qəddar qarğış dilinin kəsilməyinə diləyindir.

Barmağını yalamağa dilin olmaması üçün gərək dilin kəsilmiş olsun.

Dilin kəsilmiş olsa söz ruhuna sığışmaz

Varlığını dağıdar, söz olmayıb ruhuna yığılan duyğular...

Ay şair, niyyətin qaralıqla insanlığa yönəlik deyil

Hər kəsə xoş məramla "Sabahınız xeyir" deyirsən...

El içində belə bir deyim var, qarğışlı söz eşidəndə yadıma düşür.

Qərəzli qarğışçıya deyirlər ki, ağzından çıxsın qoynuna tökülsün...

Xalq gör necə asan yol tapır, ünvan qarğışçının özü olur...

**Sən özün qoynunu açır, yaxanı yırtırsan,**
**yəni mənim kimsə ilə işim yox...**
**Özünə niyə belə qəzəbin tutsun axı...**
**Yaxşı ki şeirin adını "ABSURD" qoymusan...**

**Ancaq şair nəfəsinin yanan ah olduğunu düşünürəm**

**Şairin ahı, qarğışı göy üzündə qalmaz axı...**
**"Tutar ahu Vətən ol yerdə ki, otlu, suludur!"**
**Yolun hardan keçsə orda söz çiçəkləri bitir**
**Mən səni hər vaxt ilhamın qanadlarında görürəm;**
**Sözünü isti su hərarəti ilə ruhuma içmişəm**
**Elə bu "Absurd"unla da yerlərə göylərdən baxırsan. Bu da sənin "Absurd"un...**

**Hövsələn çatmaya çox yaşamağa,**
**Ömrün həsrətindən uzun olmaya.**
**"Daha sözüm yoxdu sənə" deyəsən,**
**amma doğrudan da sözün olmaya.**

**Biri badə alıb tost deyə sənə,**
**Marağı könlündən üstün olmaya.**



**Hamı bir ağızdan "Dost" deyə sənə,**
**Sənin bircə nəfər dostun olmaya.**

**Dönüb söhbət edə yol işıqları,**
**İşığın səsinə oyana adam.**
**İşığın dalınca uça kəpənək,**
**Amma pərvanədən qaça bilə şam.**

**Bir də çox uzaqda sorağın ola,**
**bir addım atmağa yolun olmaya.**
**Bir də bal tutmağa barmağın ola,**
**barmaq yalamağa dilin olmaya...**

Elşən Əzim, mən istəyirəm ki, sənin həmişə sözün olsun...

Çünki sənin varlığın söz atəşləri ilə yanan maqmadır...

Mən istərdim sənin hər vaxt dostların olsun, dost olmağa haqqın var,

İç üzü bütün idbarlığı ilə görünən adamı kim sevər;

Dünyada səni sevən bircəsi qalanacan həyat sənin üçün gözəl deyilmi; Elə hamımız üçün.

Gileyin olsun, şair, gileyin qarğış olmasın...

... bir də axı sənin kifayət qədər sevənin, bütün aydınlığı ilə görünən sevilən obrazın var...

Sözü həssas oxuculara verirəm...

Qoy hər kəs nəyi düz demədiyimin fərqində olsun...

**P.S.** Elşən Əzim burda sənə xəlvətcə deyim ruhu çirklənmiş dostlarımı qəlbimdə dəfn etdikcə özümə yönəlik belə sərt düşüncələri mən də yaşamışam...

**P.S.S.** Şeirin həyatdan gəldiyini, nə qədər acı da olsa reallıqdan qaynaqlanıb gəldiyini kimsə dana bilməz. Daha nikbin duyğularla görüşmək istəyindəyəm.

**Hörmətlə:**

*Əli Rza XƏLƏFLİ*
*13.08.2023.*

**Sima Cəfərova:** - Ürəyimdən keçənləri, ən əsası Elşən Əzim ə yaraşan məntiqi ifadə etmisiniz, var olun! Sizə də yaraşan budur!

**Elşən Əzim:** - Burda qarğış yox, həyat üçün absurd olan məqamlar var. Şeirin adı "Absurd"dur axı.

**Ə.R.Xələfli:** - Elşən Əzim, mənim yazdığım şeir deyil... bədii mətnin mahiyyətinə dair esse düşüncə tezisləridir... fikirlər oxucuya asan çatsın deyə belə forma seçdim və mən adın "absurd" olmağını təqdir etdim... ancaq mətnin özünün sərt həqiqəti var... Onu da qeyd etdim; yaxşının pis üzü məlum, tərsi. Qaranlığın əksi işıqdırsa, işığın da. Mətnin bədii mükəmməlliyini isə lap əvvəldə yazdım... nə isə.

**İsmail Həkimov:** - Əli Rza bəy, Elşən Əzimin poetik dünyasının vurğunlarından biri də mənəm. Nədən və kimdən yazırsa qəlbinin səsi,idrakının mizanı ilə yazır düşünür... daşınır və düşündürür... daşındırır... "ABSURD"da yəqin ki, ovqatın məhsuludur. Hər ikiniz bizlərin dəyərli ziyalılarısınız! Uğurlar!

**Ə.R.Xələfli:** - Yaddaş unutmur.

**Məhruzə İbrahimova:** - İnsan var hər kəsə dostdur. Nə yazıq ki, insan da var heç dostu yoxdur. Qınamıram, çünki dostun çoxaldıqca düşmənlərin də çoxalır. Bəlkə də, "Absurd"u yazdıran bu hisslərdir.

**Sahib İbrahimli:** - Mühakimə və məntiqinizə eşq olsun, çox sərrast.

**13.08.2023**